# Apellyasiya Şurası

“Azərbaycan Respublikasının mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apellyasiya Şuralarının yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 3 fevral tarixli 762 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə, Dövlət Miqrasiya Xidməti rəisinin əmri ilə Dövlət Miqrasiya Xidmətinin Apellyasiya Şurası və Şuranın Katibliyi yaradılıb, onların tərkibi təsdiq edilib.

Sahibkarlıq fəaliyyəti göstərən fiziki və hüquqi şəxslərin şikayətlərinə baxılması sahəsində şəffaflığın və obyektivliyin təmin edilməsi, bu sahədə şəxslərin hüquqlarının və qanunla qorunan maraqlarının müdafiəsi məqsədi ilə yaradılan Apellyasiya Şurasına Xidmət rəisinin müavini Pərviz Musayev sədr təyin edilib. Yeddi nəfərdən ibarət olan Şuranın tərkibinə Xidmətin struktur bölmələrinin məsul vəzifəli əməkdaşları daxildir. Apellyasiya Şurasının Katibliyinin rəhbəri və tərkibi də təsdiq edilib.

Xatırladaq ki, Apellyasiya Şurasının ilk iclası keçirilib. İclasda təşkilati məsələlər, Apellyasiya Şurasının və Şuranın Katibliyinin fəaliyyətinin effektiv qurulması, sahibkarların müraciətlərinə baxılması işində səmərəliliyin təmin edilməsi ilə bağlı məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb, qarşıda duran vəzifələr müzakirə edilib.

**Apellyasiya Şurasının tərkibi:**

- Qəhrəmanov Vahid Vaqif oğlu – Miqrasiya siyasəti və hüquqi təminat baş idarəsinin rəisi;
- Abdullayev İsmayıl Əli oğlu – Miqrasiya proseslərini tənzimləmə baş idarəsinin rəisi;
- Talıbov Rza Vasif oğlu - Vətəndaşlıq məsələləri baş idarəsinin rəisi;
- Alıyev Siyasət İdris oğlu – Təşkilat-nəzarət baş idarəsi rəisinin müavini;
- Əsədova Vəfa Akif qızı – Kadrlar və kadr hazırlığı idarəsinin rəisi;
- Nağıyev Habil Sadıx oğlu – Miqrasiya nəzarəti baş idarəsi rəisinin müavini, idarə rəisi vəzifəsini müvəqqəti icra edən.

**Apellyasiya Şurasının Katibliyinin tərkibi:**

- Süleymanzadə Lalə Rəfail qızı - Təşkilat-nəzarət baş idarəsi, Nəzarət idarəsinin baş inspektoru;
- Əliyev Zamir Ramiz oğlu – Katiblik, Məxfi hissənin (bölmə səlahiyyətli) inspektoru.

Ünvan: Bakı şəhəri, Binəqədi rayonu, 3123-cü məhəllə,

Binəqədi şossesi 202;

Əlaqə

tel: (012) 563-57-82;

faks: 563-57-82;

e-mail: dmx.apellyasiya.shurasi@migration.gov.az